УДК 297; 37.01.
KBT 86.38; 74
DOI 10.33864/MTFZK.2019.42

*Aygün KƏRİMOVA[*]*
*(Azərbaycan)*

*Bakı Dövlət Universiteti*

# Əhməd bəy Ağaoğluna görə İslam təhsil sisteminin və mədəniyyətin problemlərində islahat zərurəti

***Xülasə***

*Xalqımızın mənəvi sərvəti olan Əhməd bəy Ağaoğlu Azərbaycanın tanınmış mütəfəkkir və ictimai siyasi xadimi olmuşdur. O, yalnız Azərbaycanın deyil, bütün Şərq-islam dünyasının möhtəşəm şəxsiyyətlərindən biri idi. Sovet siyasi rejiminin apardığı qadağa və unutqanlıq siyasəti nəticəsində bu işıqlı və tərəqqipərvər şəxsiyyətin Azərbaycanın və türk dünyasının dirçəlişi üçün etdikləri bir insanın maddi və mənəvi imkanlarından heyrətləndirəcək dərəcədə artıq idi. Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinin üzvü olan Əhməd bəy Ağaoğlu XX əsrin əvvəllərində Azərbaycan türklərinin milli oyanışında təhsil və mədəniyyətin formalaşmasında mədəniyyətlərarası dialoq və münasibətlərin ortaq və fərqli cəhətlərini incələyərək bunlar arasında müqayisələr edir, mədəniyyət və təhsilin bu kontekstdə təfsirini verir. Əsas qayəsi Azərbaycan türklərinin milli oyanışında müstəsna xidmət göstərmək olan ədibin xalqımızın milli məfkurəsinin oyanışında çox böyük xidmətləri olmuşdur.*

*Din insanların maddi və mənəvi hər bir sahəsinə qarışır. Dinlərin sivilizasiyaların inkişafında, insanların həyat tərzində oynadığı böyük rol hərkəsə məlumdur. Hər bir din cəmiyyətin tarixində, təhsil və incəsənətində bu və ya digər şəkildə təsir qüvvvəsinə malik olmuşdur. İnsanların modernləşməsi heç də onu inanc və əqidələrindən uzaqlaşdırmamalıdır.*

*Hər bir millətin qurtuluş yolu onun elmini, təhsilini inkişaf etdirməklə bu şəkildə fərdlərin yaşayışını təmin edən cəmiyyətin, dövlətin inkişafı sayəsində baş verə*

[*] Fəlsəfə üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti, Sosial elmlər və psixologiya fakültəsi, Fəlsəfə kafedrası, aygunxalilqizi@mail.ru, https://orcid.org/0000-0002-1781-8904

*bilər. Tərəqqinin əsas meyarı təlim-tərbiyədən keçməkdədir. Maddi ya da mənəvi inkişaf mədəniyyətlərin tərəqqi yollarında digər xalqların və millətlərin sırasında addımlamağa yardım edir. Digər mədəniyyətlərə yenilməmək üçün islahatlardan və təcrübələrdən faydalanmaq cəmiyyətlər üçün bir zərurətdir. Və bütün bunları çox gözəl bilən Əhməd Ağaoğlu şəxsiyyəti bütün həyatı boyu bu ideyaları həyata keçirmək üçün çalışmış və əlindən gələni layiqincə etmişdir.*

***Açar sözlər:*** *Əhməd Ağaoğlu, İslahat, Mədəniyyət, Türkçülük, Din, Təhsil, Modernləşmə*

## *Giriş*

Türkçülük ideologiyasının banilərindən, müsəlman şərqində islahatlar və Avropalaşma siyasətinin görkəmli tərəfdarlarından biri olan Əhməd bəy Ağaoğlu Azərbaycanın tanınmış mütəfəkkir və ictimai siyasi xadimi olmuşdur. O, yalnız Azərbaycanın deyil, bütün Şərq-islam dünyasının möhtəşəm şəxsiyyətlərindən biri idi. Sovet siyasi rejiminin apardığı qadağa və unutqanlıq siyasəti nəticəsində bu işıqlı və tərəqqipərvər şəxsiyyətin Azərbaycanın və türk dünyasının dirçəlişi üçün etdikləri bir insanın maddi və mənəvi imkanlarından heyrətləndirəcək dərəcədə artıq idi. Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinin üzvü olan Əhməd bəy Ağaoğlu XX əsrin əvvəllərində Azərbaycan türklərinin milli oyanışında təhsil və mədəniyyətin formalaşmasında mədəniyyətlərarası dialoq və münasibətlərin ortaq və fərqli cəhətlərini incələyərək bunlar arasında müqayisələr edir, mədəniyyət və təhsilin bu kontekstdə təfsirini verir. Əsas qayəsi Azərbaycan türklərinin milli oyanışında müstəsna xidmət göstərmək olan ədibin xalqımızın milli məfkurəsinin oyanışında çox böyük xidmətləri olmuşdur.

## *Əhməd bəy Ağaoğlu fenomeni*

İlk təhsilini Qarabağın mədəniyyət beşiyi Şuşada alan ədib, Şuşanın ermənilər yaşayan məhəlləsində yerləşən orta məktəbi çox çətinliklə bitirmişdir. Buna səbəb gimnaziyadakı şagirdlər içərisində Əhməd bəy Ağaoğlu da daxil olmaqla 5 türk uşağının təhsil alması idi. Erməni uşaqları demək olar ki, hər tənəffüs zamanı onları incidir, əziyyət edirdilər. Hətta vəziyyət o qədər kəskinləşmişdi ki, sonralar Əhməd

Ağaoğlu öz xatirələrində bu çətinliklərə dostlarının çoxunun dözə bilmədiyini, son sinfə çatanda isə yalnız onun tab gətirərək məktəbdə qaldığını qeyd edirdi. Gimnaziyanı bitirdikdən sonra Peterburqa Texnologiya İnstitutuna qəbul üçün gedən Əhməd bəyin bu arzusuna mane olan şovinistlərin imtahan zamanı onun qarşısını kəsmələri Əhməd bəyi təhsil üçün Parisə üz tutmağa məcbur etdi.

O, 1888-ci ildə Paris hüquq məktəbinə daxil olur. Burada təhsil almaq onun bütün dünyagörüşünə əsaslı təsir göstərir. O, şəhərin ədəbi elmi mühiti ilə yaxından tanış olur, ünsiyyətlər yaradır. Əhməd bəy Ağaoğlu məşhur Avestaşünas C.Darmstaterin vasitəsilə Fransanın məşhur alim və ədiblərindən olan Ernest Renan, İppolit Ten, Qaston Paris və s. ilə tanış olur. Onun Fransız mətbuatında çıxan məqalələrində Şərqin tarixi, mədəniyyəti, ədəbiyyatı və s. haqqındakı yazıları "Jurnal-de-Deba", "Nuvel Revyü" və digər mətbuat orqanlarında dərc olunmağa başlayır.

Cümhuriyyət dövründə Vətənə qayıdan Əhməd bəy Qafqaz İslam ordusunun müşaviri kimi Gəncədə "Türk sözü" adlı sayı çox olmasa da (cəmi iki ay) çıxarılmış qəzetə redaktorluq edir, eyni zamanda Parlamentə üzv seçilir. 1919-cu ildə Paris sülh konfransına getməyə hazırlaşan Əhməd bəy Ağaoğlunu İstanbuldakı ingilis işğalçı hərbi komandanlığı saxta ittihamlarla həbs edib Maltaya sürgünə göndərirlər. Sürgündən qayıtdıqdan sonra Türkiyəyə qayıdıb işləməyi üstün tutmuş, Atatürk ideyalarını dəstəkləyərək Anadolu agentliyinə rəhbərlik etmiş, Böyük Millət Məclisinə üzv seçilmiş, eyni zamanda Ankara Universitetində mühazirələr oxumuşdur.

## *İslahat zərurətləri*

Əhməd Ağaoğlu şəxsiyyəti o qədər milli kimliyinə, Türkçülüyünə, tərəqqiyə, mədəniyyətə və hər sahədə düşünülmüş islahata meyilli insan idi ki, o, cəmiyyətin bütün aparıcı qüvvələrinin irəli doğru aparılması naminə həyatı boyu mücadilə aparmışdır.

Əhməd bəy 1892-ci ildə dünya Şərqşünaslarının Böyük Britaniyada keçirilən IX beynəlxalq konqresində "Şiəlikdə məzdəki inanclar" mövzusunda məruzə ilə çıxış etmişdir. Şərqşünasların diqqət və marağına səbəb olmuş bu məruzə ilə o, İran şahının hədiyyəsinə layiq görülmüşdür. Məruzə həmçinin Kembric universitetinin xətti ilə Avropanın bir çox dillərinə tərcümə edilmişdir.[1]

---

[1] Aghaoghlu, A. (2017), *Uch medeniyyet kitabina on soz.* Vaqif Sultanli. Baku. *(s 5).*

XIX əsrin tanınmış mütəfəkkiri, İslam modernizminin banilərindən sayılan, milliyyətcə Azərbaycan Türklərindən olan Cəmaləddin Əfqani ilə Parisdə görüşən Əhməd Ağaoğlunun estetik görüşlərinə onun fikirlərinin çox böyük təsiri olmuş və belə görünür ki, bəlkə də onun gələcəkdə islahatçılıq ideyalarının formalaşmasında bu görüş dərin iz qoymuşdur. 1906-cı ildə "Difai" firqəsinin əsasını qoyan Əhməd bəy Ağaoğlu 1909-cu ildə şiddətli təqib səbəbiylə Türkiyəyə mühacirət edir. Orada da "Xalqa doğru", "Türk yurdu" və s. mətbuat orqanlarında çıxış edir. "Tərcümani-həqiqət" qəzetinin redaktoru olur. İstanbul Universitetində rus dili və ədəbiyyatından dərs deyən ədib eyni zamanda Osmanlı parlamentinə millət vəkili seçilir.

## *Mədəniyyətdə islahat zərurətləri*

Mədəniyyəti bir həyat tərzi adlandıran ədib, bir sıra çeşitli mədəniyyətlər: İslam mədəniyyəti, Avropa – Qərb mədəniyyəti, Budda– Brəhman mədəniyyəti kimi növlərə bölərək, bunlar arasındakı ortaq xüsusiyyəti qalib mədəniyyət anlayışında birləşdirir və qeyd edir ki, məğlub mədəniyyətlər qalib mədəniyyətlərin təqib edəcəyi yoldur.

Bu mədəniyyət zümrələrinin xarici görünüşləri qan, cins, rəng dəyişikliklərinə rəğmən bəzi ortaq və ümumi tərəfləri də mövcuddur. Bu ortaq tərəflər mədəniyyətin ruhunu təşkil edir. Hər bir kəsin xarici görünüşü onun ruhunun, dünyagörüşünün təzahürüdür. Ədib qeyd edir ki, bu məsələlərin bir qismi maddi digər bir qismi mənəvidir. Maddi qisim, məsələn, əlbisələrin şəkli, binaların biçimi, ibadət və ayinlərin icra tərzi və sairələrdən ibarətdir. "Mənəvi qisim isə düşüncə və duyğuya aid olduğundan daha genişdir. Ümumiyyətlə, deyilə bilər ki, hər mədəniyyətin özünə görə bir düşünmə gücü, bir zəkası vardır. Adəta bir dimağa sahibdir. Bunun kimi hər mədəniyyətin bir qəlbi vardır, bir duyum tərzi vardır. Dolayısıyla ortaq bir əxlaqa bir dəyər duyğusuna, ortaq yaxşı və pis, gözəl və çirkin görünüşə sahibdir".[1]

Üç mədəniyyət dedikdə əsasən onu Avropa, Budda-Brahmən və İslam mədəniyyəti deyə üç hissədə araşdıran Ə. Ağaoğlu bütün bu mədəniyyətlər arasında birər Çin səddi təsəvvür edilməsini doğru saymır və əsasən ruhuna doğma olan İslamı əxlaq kodeksi mədəniyyət forması, həyat tərzi gətirdiyini yaxşı anlayır, dinin fanatik-

[1] Aghaoghlu, A. (2017). *Uch medeniyyet kitabina on soz*. Vaqif Sultanli. Baku. *(s.32).*

cəsinə deyil, inkişafa zərər gətirməyən, elmə və təhsilə böyük önəm verən bir ideologiya olduğunu daim elmi və mədəni inkişafa meyllәndirən islahatçı mövqeyindən araşdırılmasına səy göstərmişdir. Ə.Ağaoğlu İslamı Şərqdən deyil, Qərbdə - Fransanın Sarbonne universitetinin tarix – şərq dilləri və məzhəbləri şöbəsində öyrənir. Bəlkə də onun bu islahatçı dünyagörüşünün formalaşmasında məhz bu səbəb üstünlük təşkil edir.

Avropada təhsil almasına Qərb ədədbiyyatı, tarixi, mədəniyyəti ilə yaxından tanış olmasına, dünyagörüşünün formalaşması prosesinin məsul bir dövründə Xristian əqidəli mütəfəkkirlərin əhatəsində yaşamasına baxmayaraq, Əhməd bəydə İslam dininə, onun peyğəmbərinə və ailə üzvlərinə (Əhli Beytə), Qurana dərin inam və etiqad var idi. O, dinlər içərisində İslama xüsusi hörmət bəsləyir, onun bəşər tarixində, xüsusən ərəblərin həyatında, məişətində oynadğı mütərəqqi rolunu yüksək qiymətləndirirdi.[1] Ə.Ağaoğlu 1892-ci ildə dünya Şərqşünaslarının Böyük Britaniyada keçirilən IX beynəlxalq konqresində iştirakı zamanı yazdığı təəssüratlarında belə Şərq və Qərb müqayisəsi, bəşəriyyətin inkişaf mərhələləri, istiqamətləri və bu inkişaf istiqamətlərinə təkan verən xüsusiyyətlərin məhz əbədi təkmilləşmə və sonsuz tərəqqi olduğunu vurğulayır. Ağaoğlu yazır ki, cənab Müllerin nitqi elə bir sehrli koleydoskop təsiri bağışladı ki, burada tərkibcə çox rəngarəng bəşəriyyət sanki gözə görünməyən əllərin təhriki ilə gah acələ dalğalarla Şərqdən Qərbə doğru axır, gah da qarşısıalınmaz bir qüvvə ilə Qərbdən Şərqə doğru geri çəklir. Lakin bu əbədi hərəkətə baxmayaraq məqsəd birliyi və dəyişməzliyi sayəsində daxili harmoniya və vəhdət mühafizə olunur.[2] Burada da Əhməd bəy Ağaoğlu onu nəzərə çatdırmaq istəyirdi ki, mədəniyyət Max Müllerin də dediyi kimi məhz Şərqdən başlayıb Qərbə doğru yayılmışdır**.** Lakin ədibin eyni cümlə içərisindəki "gah da qarşısıalınmaz bir qüvvə ilə Qərbdən Şərqə doğru geri çəkilir" ifadəsi əslində mədəniyyətin beşiyi olan Şərqin müəyyən zaman sonra inkişafdan deqradasiya yaşamasını göstərməyə çalışmasıdır.

## *Dində islahat zərurətləri*

Daima bir Müsəlman –Türk təəssübkeşliyi çəkən bu şəxsiyyət Qərbin ortaq

---

[1] Dovlet ve din. (2016). №5 (46) sentyabr-oktyabr, (s. 72)

[2] Aghaoghlu, A. (2006). Shergshunaslarin konqresinde "Medeniyyet dunyasi" jurnali . XI Burakhılısh. Baku ADMİU. (s. 9)

düşünmə güclərinə eyni zehniyyət anlayışına, elmi paylaşımlarına, duyum tərzinə qibtə ilə baxaraq bu inkişaf pillələrində nə üçün bizlərin də olmamasına çox üzülərək yazırdı: Hələ Avropada mövcud olan, İslam aləmində örnəyinə rast gəlinməyən millətlərarası təşkilatdan biz burada söz etmirik. Məslən, millətlərarası işçi və alimlər konqresləri, Tröstlər və s. kimi amillər avropa qövmləri arasında hətta ümumi ülkülər, amaclar, hədəflər belə doğurmuşdur. Yuxarıda mədəniyyətlərin qəlb və beyinləri adıyla yad etdiyimiz xüsuslar, iştə bu ortaq və ümumi amillərin təsirləri ilə meydana gəlmişdir. Belə olan surətdə eyni mədəniyyət zümrəsinin, eyni baş ilə düşünər, eyni qəlb ilə duyar, eyni mənəvi cihazlarla bəzənmiş görürük.[1] Avropa yaşam tərzini müqayisə edərkən üstünlüyü Qərbə verən Ağaoğlu yazılarında İran cəmiyyətinin bəzi mənfi nəticələrini, "təzahürlərini" də önə çıxarmışdır: Nəsirəddin şahla fransız dövlət başçısı Carnotun görüşü hadisəsini təsvir edərkən birinin – Nəsirəddin Şahın təkəbbürlü tərzi; göz qamaşdıran , mücəvhərlərlə örtülü ədalı geyimi və Fransız dövlət başçısı Sadi Carnotun sadə qara redinqotu, mütəvazi davranışını müqayisə edən Əhməd bəy burada da mədəniyyəti həyat tərzi kimi dəyərləndirərək hər ikisinin timsalında Şərqlə Qərbi müqayisə edir." Şahın bu ədası və sadrı-azamın bu sadələyi, Şərq despotizminin mahiyyətini göstərən açıq örnəklərdəndir**.**[2]

Əhməd Ağaoğlu mədəniyyətlərin qarşılıqlı durumlarını müqayisə edərkən bunlardan birisini, yəni Qərb mədəniyyətini qalib və digər ikisinin də yəni, İslam və Budda-Brəhmən mədəniyyətini məğlub durumda olduqlarını deyirdi. Bu məğlubiyyəti etiraf etmək məcburiyyətində qaldığı üçün isə çox üzülürdü. Yenilməni iki növə bölərkən: maddi və mənəvi yenilmə deyə bölgü aparan ədib, yenilmənin özünün nə demək olduğunu açıqlayır.

Yenilmə nədir? Başqasının şəxsiyyətini qəbul və iradəsinə tabe olmaq deyilmidir? Bu qəbul və tabe olma istəklə də olsa, zorla da olsa yenilmədir. Bu baxımdan istər İslam, istərsə də Budda-Brəhmən mədəniyyəti yenilmişdir. Qərb mədəniyyətinin şəxsiyyət və özəlliklərini qəbul və onun iradəsinə tabe olmaq məcburiyyətindədirlər. İstər Müsəlmanlar və istərsə sarı irq çevrəsi əlbisələrindən və evlərinin döşənməsi kimi həyatın maddi təcəllələrindən başlayaraq ədəbiyyat və musiqi kimi

[1] Aghaoghlu, A. (2017). *Uch medeniyyet kitabina on soz*. Vaqif Sultanli. Baku. (s. 35)
[2] Akchura,Y. (1978). *Turkchuluk: Turkchuluyun tarihi gelishimi*. İstanbul: Turk Kultur yayini. (s 195)

mənəvi tərəflərin ən munis köşələrinə qədər Avropa modellərini təqlid etməkdədirlər. Hələ ictimai, siyasi, texniki müəssisələrdə təlim və təhsildə Avropanın bütün – bütün öyrəncisidirlər.[1]

Mədəniyyət anlayışı bölünməz tam halda ələ alınmalıdır. Qərb mədəniyyətinin üstünlük və qələbəsini etiraf ediriksə, o qələbəni yalnız elm və fənnə və hətta bəzi siyasi və ictimai təşkilata bağlamamalıyıq, mədəniyyətin bütünlükdə zehniyyətinə, görüş tərzinə, ruhuna, beyninə, şüuruna, qəlbinə bağlanmalıyıq. Qərb həyatı bizim həyatımızın bütününə qələbə çalmışsa və bu qələbə səbəbiylə yalnız əlbisələrimiz deyil, beynimiz, ruhumuz, zehniyyətimiz də dəyişilməlidir.

Əhməd bəy Ağaoğlu bütün bu tərəqqipərvər fikirlərinin içərisində özünə belə bir sual ünvanlayır. Eyni zamanda özü də eyni sualı cavablayaraq açıqlama verir. "Burada önəmli bir nöqtəyə toxunuruq. Milli kimliyimiz nə olacaqdır? Əcaba belə zahirdən və daxildən, bütün varlığımızla başqalarına uymaq istəsək milli şəxsiyyətimizi qeyb etmək təhlükəsinə uğrayacayıqmı?" [2]

Şəxsiyyət anlayışına aydınlıq gətirərkən Əhməd bəy onu dil kimi millətin maddi varlığı hesab edir, hər maddi vücudun bir şəxsiyyəti vardır. Kainatda eynilik yoxdur, bu fərq bunların şəxsiyyətlərini, özəlliklərini göstərir. Bununla da millətlər şəxsiyyətləriylə mütləq surətdə digərlərindən ayrılır. Fəqət bu şəxsiyyət hansısa əxlaq və hüquqla, hansısa memarlıq və hüquqla şərtlənmir, inkişaf dərəcəsinə görə fərqlənir.

Əhməd bəyin fikrinə görə, Milli şəxsiyyəti yalnız hərəkətsizlik öldürür. İstər fərdlərdə və istər millətlərdə həyat nə qədər qatı və qüvvətlədirsə şəxsiyyət də o nisbətdə ziyadədir.[3]

Cəmiyyətin bir sıra alt sistemlərinin inkişafına dair öz islahatçı mövqeli düşüncələri ilə fikir bildirən Əhməd bəy Ağaoğlu dinə, əsasən də İslam dininə olan münasibəti xüsusən qeyd edilməlidir. Din insanların maddi və mənəvi hər bir sahəsinə qarışır.

Bəşər tarixində cəmiyyətlərsiz din olsa da dinsiz bir cəmiyyətə rast gəlinməmişdir. Dinlərin sivilizasiyaların inkişafında, insanların həyat tərzində oynadığı böyük rol hərkəsə məlumdur. Hər bir din cəmiyyətin tarixində, təhsil və incəsənətində

[1] Aghaoghlu, A. (2017). *Uch medeniyyet kitabina on soz.* Vaqif Sultanli. Baku. (s 36)
[2] Yenə orada, (s. 40)
[3] Yenə orada, (s. 43)

bu və ya digər şəkildə təsir qüvvvəsinə malik olmuşdur. O bəzən adət-ənənələrin arasında sıxışdırılaraq xalqaların (əsasən də Türk xalqlarının) genetik xüsusiyyət-lərindən qidalanaraq əsas mahiyyəttində dəyişik formalar alaraq öz həqəqi çər-çivəsindən kənara çixmağa məcbur olmuşdur.

Cəmiyyətin ayrılmaz hissəsi olan dini həyatı incələyərkən Ağaoğlu şahidi ol-duğu çatışmazlıqları, qüsurları qeyd etmədən keçə biməzdi. Yaşadığı ərazi, mənsub olduğu dini inanc sisteminin daşıdığı təəssüb səbəbiylə o, mütərəqqi, xeyirxah, hu-manist bəşəriyyətə gətirdiyi universal xarakterli bütün ideyaları ilə təlim -tərbiyə aşı-layan bir din olduğu halda İslamın niyə bu qədər gerilik və çöküş yaşamasına çox üzülürdü. Camilərin sosial fəaliyyətlərini dayandırması, maarifləndirici söhbətlərin aparılmaması, insanların qəlblərinə hüzur, gözəl ilahi duyğular gətirməyən bir dinin zaman-zaman insanlardan uzaqlaşması, lazımi şəkildə yaşanmaması həqiqətən bö-yük bir faciə idi. İslamın da özündən qaynaqlanan zaman və məkana uyğun davranıl-ması ideyası çox təəssüf ki unudulur və bu halda da böyük ictimai, mənəvi sarsıntı-lar yaradır.

Əhməd bəy bütün bu sarsıntıları görərək yazırdı: «Dini bu hala gətirən və camiləri boşaldan, yenə din əmrini düzənləmək iddiasında bulunaraq insanın ruh halından tamamilə xəbərsiz olanlardır. Bunlar təqdir edə bilmirlər ki, insanları bir araya çəkən ya düşüncədir və ya duyğu. Halbuki düşüncə və duyğu tamamilə camidən qovulmuşdur. Xütbə və vəəzlərimiz, yüz illərdən bəri təkrarlanan və xalqca dili anlaşılmayan bilməcələrdən ibarət, eyni nəqaratdır.

Eyni zamanda İslamı zamana, insanların təhsil və dünyagörüşünə uyğun şəkil-də, daha müasir, anlaşılan bir dildə, bir formada anladılmasına tərəfdar olduğunu göstərək əlavə edirdi: "Xütbələr, ümumiyyətlə, dinləyənlərimində biri tərəfindən an-laşılmaz. Vəəzlərə gəlincə, çox kərəxürafələr ətrafında dolaşır. Bunlar Hz.Məhəm-mədin və ilk dörd xəlifənin zamanlarındakı xütbə və vəəzlərdən çox fərqlənir. O zaman ərəbcə anlayan xalqa söylənən və zaman və məkanın ehtiyaclarına görə dü-zənlənən xütbələrdə xalq və gündəlik məsələlərin hal şəklinə, ya yüksək din fikirlə-rinin anladılmasına, əxlaq prinsiplərinin açıqlanmasına aid çox faydalı sözlər dinlərdi".[1]

İslamın çağdaş cəmiyyətlərdəki vəziyyətinə nəzər saldığımız zaman da bu

---

[1] Aghaoghlu, A. (2017). *Uch medeniyyet kitabina on soz.* Vaqif Sultanli. Baku. (s.120)

düşüncə tərzində olan mənzərəyə rast gəlməməyimiz mümkün deyil. Keçən əsrin əvvələrində yaşamış olan islahatçı, maarifçi Ə.B.Ağaoğlu cəmiyyətin mədəni inkişafında elmin, təhsilin, mətbuatın xalqa necə müsbət təsir göstərəcəyini, bu yolda hansı istiqamətdə hərəkət etməyi çox dəqiq bilirdi. Məhz bu səbəblə Ağaoğlu adı yaşadığı dövr ərzində əksər mətbuat yayımlarında: "Şərqi Rus", "Kafkaz", "Kaspi", "Həyat" "İrşad" və İstanbulda "Sirati mustəkim", "Sebilu-r-Reşad", "Hikmət", "Tercümani hakikat" və s. məqalələr çap etdirir, bəzilərinə isə şəxsən özü redaktorluq edirdi. Milli şüurun oyanması və xalqın milli ruhunun oyanışındakı bu roluna görə o, dövrün görkəmli Türkçü ziyalısı Yusuf Akçuranın sözləri ilə desək: Əvvəlcə Axundzadələr, Məlikzadələr, Ünsizadələr Qafqazda Türk milli duyğu və şüurunun oyanmasına az çox təsir etmiş olmaqla bərabər, bu şüurun qüvvətli və müəyyən bir hala gəlməsi iddia edilə bilər ki, Azərbaycanda gündəlik mətbuatın qurulmasında etibarən başlayır. Və bu böyük işin ilk qurucuları məhz Hüseynzadə ilə Ağaoğludur .[1]

Türk dilində jurnalistliyə başlamadan öncə Rus dilində Tiflisdə dərc olunmuş məqaləsində İslami qaydaların mütərəqqi olduğunu, Abbasilər dövrünün ortalarına qədər bu vəziyyətdə davam etsə də sonra Şeyxlərin və bəzi alimlərin mənfəətçilikləri ucbatından İslamın geriləməsinə səbəb olmuşdur.[2]

Əhməd bəy bu risaləsində İslamın inkişafı və geriləməsinə ölçü olaraq "qadını" götürmüşdür. Onun bu araşadırmasına görə hz. Peyğəmər qadını İslamdan öncəki Ərəb adətlərinə görə yüksəltmişdir. Türk – Tatar qövmlərinin İslamı qəbul etməsindən sonra qadının mövqeyi yüksəlsə də bu ünsürün adət və ənənələri belə Şərqin qədim mədəniyyətlərindən olan İran və Suryanilərin mədəniyyətlərinə qalib gələ bilməmişlər. Buna görə də qadın yenə mədəni və sosial tərəfədən geri düşmüş və nəhayət bu günkü vəziyyətinə enmişdir.

İslam qövmlərinin qurtuluş və irəliləmsini təmin etmək üçün Ağaoğlunun fikrincə xüsusilə iki əsas məsələnin həll olunması lazımdı: Qadın məsələsi və Əlifba məsələsi. Bir müsəlman qadını sərbəst və şüurlu bir ana və həyat yoldaşı olmalıdır. Məhz bu zaman o sosial vəzifəsini yerinə yetirmiş olacaqdır. Bu şərtlər daxilində övladlarının xasiyyət və iradəsini tərbiyə edə bilər, yüksək duyğular təlqin edə bilər.

---

[1] Akchura, Y. (1978). *Turkchuluk: Turkchuluyun tarihi gelishimi.* İstanbul: Turk Kultur yayini. (s.120)

[2] Aghaev, A. (1901). *Djenshina v İslame.* Tiphlis (Skhoropech. M. Martirosyancha Mikhailovskhiy pr, (№81), (s 59)

"Boğucu hərəm havası içində keçirilən tənbəl və sırf heyvani bir həyat, qadının bədəni inkişafına da icazə vermədiyindən irqin bədəni çöküşünədə yol almaqdadır. Əlifbanın güclülüyü isə oxuyub yazmaya çox çətinlik yaratdığından müsəlmanların ağıl və qəlblərini işıqlandırması yolunu qapatmışdır. Qadın və əlifba, budur İslam aləminin iki ən həqiqi düşməni, onun mualicə olunmayan xəstəliyi ki, onların təsiri altında bu aləm yavaş-yavaş məhv olunmaqdadır."[1]

Bütün bu səbəbləri sayan müəllif bu xəstəliyin müalicəsi üsullarını da qeyd edərkən Müsəlman aləminin oyanması, mədəni millətlər mühitinə girə bilməsi üçün bir təkana ehtiyac olduğunu söyləyir. Müsəlmanlar mütləq bir reform, islahat dövrü keçməlidirlər. İçlərindən qüvvətli bir iradə sahibi iş üçün nəfsini tamamilə fəda edən bir reformator, İslamın tarix və ənənələrinə uyğun olmalıdır. Quran və şəriət onun daşıyıcıları tərəfindən sevilməli, yayılmalı və inkişaf etməlidir.

Ədibin əsərlərindən göründüyünə görə o da bir çox Türkçülər kimi İslamın islahı, İslamın əsl mahiyyətinə qaytarılması məsələləri ilə məşğul olmuşdur. Türkçülüyün mahiyyəti özü-özlüyündə bir milli şüur inkişafı və islahatı demək idi. Çünki hər bir millət həm dini, həm də milli inkişafı ilə bərabər paralel inkişaf göstəricisində vəhdət yaratdığı zaman daha mədəni, daha mükəmməl bir cəmiyyət modeli yaradır.

Ağaoğlu görünüşdə İslamiyyətə bəlli bir həssaslıqla yaxınlaşmağa səy göstərmişdir. Halbuki bu cəhdi, islam dünyasının bütün ünsürlərini əhatə etməyə, onun tarixi təcrübələrindən yararlanmağa və ya İslam kimliyindəki təcrübələrdən ənənəvi elementləri canlandırmağa yönəldilmiş bir istəyi ehtiva etməməkdədir. Üstəlik bu həssaslıq, hələki bəlli olmayan bir qərbliləşmə proqramının cəmiyyət tərəfindən qəbul edilməsi üçün bir növ hazırlıq vəzifəsi daşımışdır. Bu səbəblə onun yazılarında dünyəvi və milli şüura vurulan vurğu, dini şüura edilən vurğunu aşmaqdadır. Modernləşmə dini də içinə alaraq dəyişdirən bir yönəliş hədəfidir.[2]

İnsanların modernləşməsi heç də onun inanc və əqidələrindən uzaqlaşdırmamalıdır. Necə ki, islahatçı şəxsiyyət olan Əhməd bəy insanları sadəcə inancalar və ibadətlər qəlibi içərisində qalmamasına üstünlük verirdi. İnsan ibadət və inancını

[1] Akchura, A. (1978). *Turkchuluk: Turkchuluyun tarihi gelishimi*. İstanbul: Turk Kultur yayini. (s.200)

[2] Suleymanli, M. (2008). *Ahmad Aghaoghlunun "İslama gore ve İslamiyyetde qadin" eserine elmi-tengidi yanashmalar*, Baku, (s 20)

qorumaqla bərabər eyni zamanda dünya işlərində də uğur və müvəffəqiyyət qazanmalıdır. Ağaoğlunun dediyi kimi: İnanclar və ibadətlərdə dinə bağlı olduğumuz halda, dünya işlərində tamamilə sərbəstik. Dünya işlərində istədiyimiz kimi təsərrüf edə bilərik. Maddi həyatımızı ümuminin mənfəətini göz önündə tutaraq, istədiyimiz kimi düzənləmək haqqına sahibik.

Sonra yenə əlavə edərək yazırdı ki, "Bu qaydanı, bu ümumi prinsipi qoyaraq dini mövzunu açıq bir surətdə ayırır və digər mövzularda özümüzü tamamilə sərbəst sayaraq həm dilimizi qorumuş və yüksəltmiş olur və həm də bizi bir çox yüz illərdən bəri saran fasit dairədən özümüzü qurtarır və çağımızla tək rəng tək ruh olaraq yürüyə bilərik. Əks halda bizim üçün qurtuluş çarəsi yoxdur. [1] Deməli, hər bir millətin qurtuluş yolu onun elmini,təhsilini inkişaf etdirməklə bu şəkildə fərdlərin yaşayışını təmin edən cəmiyyətin, dövlətin inkişafı sayəsində baş verə bilər. Tərəqqinin əsas meyarı təlim tərbiyədən keçməkdədir. Maddi ya da mənəvi inkişaf mədəniyyətlərin tərəqqi yollarında digər xalqların və millətlərin sırasında addımlamağa yardım edir. Digər mədəniyyətlərə yenilməmək üçün islahatlardan və təcrübələrdən faydalanmaq cəmiyyətlər üçün bir zərurətdir.

Əhməd bəy Ağaoğlunun modernləşmə ideyaları təəssüf ki, Azərbaycanın sovetlər tərkibinə keçdiyi, Azərbaycan Demokratik Respublikasının bolşevik Rusiyası tərəfindən işğalına qədər davam edə bildi.

Azərbaycanın XX əsrdəki modernləşməsi, özündən kənarda inkişaf edən və özünün istiqamət verməkdə uğur göstərə bilmədiyi hadisələr səbəbiylə idarə olunan bir mahiyyət qazanmışdır. On ilə qədər qısa bir zaman içərisində Rus Azərbaycanı əvvəlcə Almaniya və Osmanlı, daha sonra müvəqqəti bir sürə İngilis nəzarətinə keçmiş, Bolşeviklərin Qafqazada nəzarəti ələ keçirməsindən sonra isə ölkədə qəti bir formada Sovet nüfuzu ortaya çıxmışdır. I dünya müharibəsindən sonra Qafqaz və Azərbaycan bariz bir Sovetləşmə dövrünə məruz qalmışdır. Yeni dövrdə bölgə kənar dünyaya böyük miqyasda qapalı qalmışdır. Və modernləşmə müddəti Rus mərkəzinə bağlı olaraq təyin edilmişdir. [2]

---

[1] Aghaoghlu, A. (2017). *Uch medeniyyet kitabina on soz.* Vaqif Sultanli. Baku. (s.65)

[2] Özcan, U. Ahmet *Ağaoğlunun kişisel serüveni açısından XX yüzyılda Türkiye ve Azerbaycan dakı modernleşme deneyimleri.* https://dergipark.org.tr/download/article-file/101012

DOI 10.33864/MTFZK.
ISSN 2616-6879 (Print)
ISSN 2617-751X (Online)

## Nəticə

Yaşadığı bütün həyatı boyu nəslinin də genetik xüsusiyyətlərindən və eyni zamanda Avropa təhsilli olmasından faydalanaraq Əhməd bəy Ağaoğlu şəxsiyyəti Azərbaycandan kənarda yaşadığı mühacir həyatında belə bir modernist, islahatçı fikir və əqidəsindən dönməmişdir. O nurlu şəxsiyyət yaxşı bilirdiki xalqının təfəkküründəki inkişaf, milli məfkurəsindəki oyanışlar, təhsilin və mədəniyyətin tərəqqisi onun xalqını dünyanın ən qabaqcıl, inkişaf etmiş millətləri ilə bərabər tuta bilər. Bütün bu sadalanan keyfiyyətlərin hər biri millətimizin mənəvi potensialında mövcud idi. Məhz Əhməd bəy Ağaoğlular kimi Vətənpərvər, Millətsevər, Türkçü oğulları yetişdirən bu torpağın azad, xoşbəxt, firavan yaşamağa əlbəttə ki daha çox haqqı vardı. Lakin nə yazıq ki, xarici qüvvələrin istər dini, istərsə də elmi-mədəni inkişafa mane olmaları, bu cür islahatçı, mütərəqqi ideyalı şəxslərin qarşısını almaq üçün bəzən həbs, bəzən sürgün bəzən isə şər və böhtanlarla ləkələməyə çalışıb onları bu yolda ləngitməyə çalışdıqlarının şahidi oluruq. Amma Əhməd bəy Ağaoğlu kimi şəxsiyyətlərin üsütünlüyü burda idi ki, onlar bütün bu iztirablara baxmayaraq millətinin, xalqının maddi və mənəvi inkişafı yolunda yorulmadan çalışmış, eyni zamanda dövrün siyasi hadisələrində milli-etnik məsələlərdə hər zaman millətinin yanında olaraq ziyalılıq borclarından müvəffəqiyyətlə və alnıaçıq çıxmışlar.

## Ədəbiyyat siyahısı

1. Агаев, А. *Женщина в Исламе.*Тифлис (Скоропец. М.)
2. Ağaoğlu, Ə. (2017). *Üç mədəniyyət kitabına ön söz.* Vaqif Sultanlı. Bakı
3. Ağayev, Ə. (2006). Şərqşünasların konqresində "Mədəniyyət dünyası" jurnalı . XI buraxılış. Bakı ADMİU
4. Süleymanlı, M. (2008). *Əhməd Ağaoğlunun "İslama görə və İslamiyyətdə qadın" əsərinə elmi-tənqidi yanaşmalar*, Bakış https://dergipark.org.tr/download/article-file/101012
5. Akçura, A. (1978). *Türkçülük: Türkçülüyün tarihi gelişimi*. İstanbul: Türk Kültür yayını.
6. Özcan, U. Ahmet *Ağaoğlunun kişisel serüveni açısından XX yüzyılda Türkiye ve Azerbaycan dakı modernleşme deneyimleri*. // https://dergipark.org.tr/download/article-file/101012

7. Мартиросянца. Михайловский пр, (№81) 1901 Dövlət və din. (№5), (46), (sentyabr-oktyabr 2016).

***Dr. Aigun Karimova***

## *Ahmed bek Agaoglu About the Need for Reforms in Islamic Education and Culture*

*(abstract)*

*Ahmed Bek Agaoglu, who is the moral heritage of the Azerbaijani people, is a well-known thinker and socio-political figure. He was one of the noteworthy personalities of not only Azerbaijan, but of the entire East Islamic world. This bright, progressive person, forgotten as a result of the policy of prohibitions and oblivion pursued by the Soviet regime, has done a lot for the revival of Azerbaijan and the entire Turkic world, while one can marvel at the material and spiritual capabilities of this person. Ahmed bey Agaoglu, as a member of the parliament of the Azerbaijan People's Republic, considering the general and special aspects of intercultural dialogue and relations in the formation of education and culture, in the national awakening of Azerbaijani Turks at the beginning of the 20th century, compares the development of culture and education in this context. The author, who strove to do everything for the national awakening of the Azerbaijani Turks, played a large role in shaping the national identity of our people.*

*Religion is visible in every aspect of social life, both material and spiritual. It is well known that religions play a large role in the development of civilizations and in how people live. Each religion has a certain impact on the history, education and art of society.*

*The path of salvation of any nation can be achieved through the development of science and education, which ensures the survival of the individual due to the development of society and the state. Ahmed Agaoglu, who knew all this, throughout his life worked hard to implement these ideas, and did everything possible.*

***Keywords:*** *Ahmed Agaoglu, reform, culture, Turkism, religion, education, modernization.*

**_Beynəlxalq Metafizika Mərkəzi_** **_DOI 10.33864/MTFZK._**
**_Metafizika jurnalı_** **_ISSN 2616-6879 (Print)_**
**_2019, cild 2, say 3, sıra 7_** **_ISSN 2617-751X (Online)_**

**_Др. Айгюн Керимова_**

## _Ахмед бек Агаоглу о необходимости реформ в сфере исламского образования и культуры_

**(**_резюме_**)**

_Ахмед Бек Агаоглу, являющийся нравственным достоянием азербайджанского народа, является известным мыслителем и общественно-политическим деятелем. Он был одной из достойных подражания личностей не только Азербайджана, но и всего восточно-исламского мира. Эта светлая, прогрессивная личность, забытая в результате политики запретов и забвения, проводимой советским режимом, многое сделала для возрождения Азербайджана и всего тюркского мира, при этом можно поразиться материальными и духовными возможностями этого человека. Ахмед бек Агаоглу, как член парламента Азербайджанской Народной Республики, рассматривая общие и особенные аспекты межкультурного диалога и отношений в формировании образования и культуры, в национальном пробуждении азербайджанских турок в начале XX века, сравнивает в этом контексте развитие культуры и образования. Автор, который стремился сделать все для национального пробуждения азербайджанских тюрок, сыграл большую роль в формировании национального самосознания нашего народа. Говоря о реформистской позиции в отношении развития ряда подсистем общества, необходимо подчеркнуть отношение Ахмеда бека Агаоглу к религии, особенно к исламу. Религия просматривается в каждом аспекте социальной жизни, как материальной, так и духовной. Как реформатор, Ахмед Бек предпочитает, чтобы люди не оставались в строгих рамках, или оковах веры и поклонения. То есть человек не только может поддерживать свое поклонение и веру, он также может быть успешным и процветающим в мирских делах. Путь спасения любой нации может быть достигнут через развитие науки и образования, что обеспечивает выживание личности за счет развития общества и государства. Ахмед Агаоглу, который знал все это, на протяжении всей своей жизни усердно трудился для реализации этих идей, и делал все возможное._

**_Ключевые слова:_** _Ахмед Агаоглу, реформа, культура, тюркизм, религия, образование, модернизация._

_Məqalə redaksiya daxil olmuşdur: 04. 09. 2019_
_Təkrar işləməyə göndərilmişdir: 09. 09. 2019_
_Çapa qəbul edilmişdir: 15. 09. 2019_